

# Vətən oğlu, hazır ol düşməni öldürməyə!

Cəbhələrdə mətin ol, döyüşlərdən ər qayıt.
Yağılara divan tut, göstər bir hünər qayıt.
Ürəyində məhəbbət, dizində təpər qayıt.
Qoyma ana-bacımız yas donunu geyməyə,
Vətən oğlu, hazır ol düşməni öldürməyə!

Şığı qartaldan betər səngərində diri tut,
Qov qayada, meşədə, uçurumda sürü tut.
Zülmət kəsil tufan ol, gözlərini bürü, tut.
Gücünü, qüdrətini dünyaya bildirməyə,
Vətən oğlu, hazır ol düşməni öldürməyə!

Yadlar ayaq basmasın bu vətənə, bu elə,
Üzeyir küskün durar, Vurğun inciyər lələ.
Özün dur keşiyində, qoru belədən belə,
Xan Əmini, Cabbarı Şuşada dinləməyə,
Vətən oğlu, hazır ol düşməni öldürməyə!

Bu Vətəni bölməyək biz nə dağa, arana,
Qar-boran üşütməsin, ver sinəni borana.
Sadiq ol əqidənə, and içdiyin Qurana.
Uyma şərə, böhtana, fırıldağa, kələyə,
Vətən oğlu, hazır ol düşməni öldürməyə!

Zilə köklə o yerdə səsini, avazını,
Avtomatın susanda yaraq eylə sazını,
Qayğısına özün qal, gəl özün çək nazını,
Yat qoynunda "Qırxqız"ın bənzəri var mələyə,
Vətən oğlu, hazır ol düşməni öldürməyə!

Kəlbəcərə hayların qoyma düşə güzarı.
Laçında Soltan bəyin artar dərdi-azarı.
Xan Qızının, Vaqifin alovlanar məzarı.
Bircə qarış torpağı qıyma yada verməyə,
Vətən oğlu, hazır ol düşməni öldürməyə!

Ay Həsənli, dayanma, döyüşçü ilə tən yeri,
Qələbə sorağıyla ön sırada sən yeri.
Qollarında el gücü, ürəkdə Vətən yeri,
Talan edib yağının qamətini əyməyə,
Vətən oğlu, hazır ol düşməni öldürməyə!

Bak x b r 2020.- 1 oktyabr.- S.16.